Mühazirə 15.
Sahibkarlığın dövlət tənzimlənməsi

Plan:

1.İqtisadiyyatın dövlət tənzimlənməsinin zəruriliyi
2.Büdcə-vergi siyasəti və sahibkarlıq
3.İnvestisiya siyasəti və sahibkarlıq
4.Sahibkarlığın tənzimlənməsinin iqtisadi-psixoloji məsələləri

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Ş.Ə.Səmədzadə, V.R.Musayev. İ.Z.Seyfullayev. Sahibkarlığın əsasları. Dərslik. Bakı 2010
2. F.H.Abbasov, R.A.Quliyev. Sahibkarlığın əsasları. Dərslik. Bakı 2012.
3. A.H.Tağıyev, S.A.Fərzəliyev. Biznesin təşkili və idarə edilməsi. Sumqayıt 2007.
4. Qreqori Mənkyu "Ekonomiksin əsasları" Harvard Universiteti. Tərcümə 2010.
5. V.R.Musayev, İ.Z.Seyfullayev "Sahibkarlığın əsasları". Bakı 2000.
6. V.Niftullayev "Sahibkarlığın əsasları". Bakı 2002.

1.İqtisadiyyatın dövlət tənzimlənməsinin zəruriliyi

Dövlət sahibkarlıq fəaliyyətini qanunvericilik,inzibati hüquq,büdcə,vergi və pul kredit sistemləri vasitəsilə tənzimləyir. Dövlət sahibkarlığa kömək məqsədi ilə informasiya,məsləhət,elm və tədris mərkəzləri, maliyyə fondları yaradır. Çoxlu müsbət cəhətlərinə baxmayaraq bazar iqtisadiyyatı bütün iqtisadi və sosial prosesləri avtomatik sürətdə tənzimləmək imkanına malik deyildir. Dünya təcrübəsi göstərir ki, təkcə bazar mexanizmi cəmiyyətin ümumi tələbatını ödəyə bilməz. O, gəlirin sosial ədalət prinsipi əsasında bölgüsünü təmin etmir, ətraf mühitin müqafizəsinə və imkansız əhali təbəqəsinin mühafizəsinə yönəmlənmir. Sahibkar kifayət qədər yüksək mənfəət gətirməyən sahələrə və layihələrə sərmayə qoymaq istəmir, hansı ki, onlar cəmiyyət üçün olduqca zəruridir, dəyərlidir.Əslində, ideal bazar iqtisadiyyatı modeli də ölkənin müxtəlif iqtisadi və sosial problemlərinin həlli üçün dövlət tənzimlənməsi mexanizmindən istifadə olunmasını nəzədə tutur.

Bazar iqtisadiyyatı şəraitndə istehsalçı və istehlakçının hüquqlarının qorunması, ölkədə etibarlı qayda-qanunun və milli təhlükəsizliyin təmin edilməsi kimi ciddi vəzifələr dövlətə həvalə olunur. Bu isə milli iqtisadiyyatın dirçəldilməsi və azad sahibkarlığın inkişafı üçün əsasdır.

Mülkiyyət formalarından və sosial-iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq öz tənzimləyici rol və funksiyalarından iqtisadiyyatda istifadə etməli, milli iqtisafiyyatın formalaşması üçün müvafiq şərait yaratmalıdır. Bu obyektiv zəruriyyət bazar iqtisadiyyatının mahiyyətindən irəli gəlir. Amerika iqtisadçısı, nobel mükafatı laureatı B.İ.Leontyev iqtisadiyyatı yelkənli gəmiyə bənzədir. Yelkənli gəmini idarə etmək üçün külək və sükan lazımdır. İqtisadiyyatda külək funksiyasını maddi maraq, sükan funksiyasını isə dövlətin iqtisadi sistemi yerinə yetirir. Deməli, dövlət iqtisadiyyatının idarə edilməsində və

tənzimlənməsində sadəcə olaraq seyrçi mövqeyi tutmamalı, öncül inkişaf istiqamətlərini müəyyənləşdirməli və səmərəli idarə etmə strukturu yaratmalıdır. Bazar iqtisadiiayatına keçid dövründə dövlət aşağıdakı əsas funksiyaları yerinə yetirməlidir:

1. Zəruri normativ-hüquqi baza yaratmalıdır. Görkəmli ingilis sosioloqu Karl Popper yazır ki, bazar münasibətlərinə əasslanan və əhəmiyyətli azad seçmə təklif edən sənaye cəmiyyəti hüquqi sistem və qanuni hakimiyyət olmadan ağla gəlməzdir. Hüquqi baza olmadan iqtisafiyyat və bütövlükdə cəmiyyət normal inkişaf edə bilməz. Mülkiyyətçilik hüquqlarını müəyyənləşdirən, sahibkarlıq fəaliyyətini tənzimləyən qanunlar, normativ-hüquqi sənədlər olmalıdır. Hüquqi əsasın köməyi ilə dövlət sahibkarlıq fəaliyyəti subyektləri arasında münasibətləri tənzimləyən qanuni "oyun qaydalarını" təmin edir.

2. Ölkədə lazımi qayda-qanunu və milli təhlükəsizliyi təmin etməlidir. Ölkənin hər bir vətəndaşının, bütövlükdə cəmiyyətin və bütün bazat iqtisadiyyatı subyektlərinin hüquq və təhlükəsizliyini dövlət təmin etməlidir. Əgər dövlət bu funksiyanı yerinə yetirmirsə, onda ölkənin daxilində kriminal vəziyyətin: cinayət hadisələri, mafiya, karrupsiya, rüşvətxorluq və digər neqativ halların inkişafı üçün şərait yaranır ki, bu da sahibkarlıq fəaliyyətinə və bütövlükdə ölkənin iqtisadiyyatına dağıdıcı təsir edir.

3. Makroiqtisadi sabitliyi təmin etməlidir. Daha doğrusu, makroiqtisadfi göstəricilərin: ümumi daxili məhsil həcminin, milli gəlirin, inflyasiya və işsizlik səviyyəsinin, büdcə kəsirinin və s. optimal səviyyəsini təmin etmək və onu saxlamaq. İqtisafiyyatın sabitləşdiirlməsini təmin etmək üçün dövlət müvafiq fiskal, maliyyə-kredit, elmi-texniki və investisiya siyasəti həyata keçirməklə dövlət sərəncamında olan bütün vasitə və metoflardan istifadə etməlidir. Əgər dövlət makroiqtisadsi sabitliyi təmin etməzsə, onda bu sahibkarlıq fəaliyyətinə, bütövlükdə ölkənin iqtisafiyyatına, əhalinin sosial həyat tərzinə mənfi təsir göstərər.

4. Əhalinin sosial müdafiəsini təmin etməlidir. Dövlət aktiv sosial siyasət həyata keçirməlidir, yəni bütün işçiləri minimum əmək haqqı ilə, qocaları və əlilləri pensiyalarla və işsizləri müavinətlərlə təmin etməli, əhalinin az təminatlı təbəqələrinə müxtəlif növ yardımlar verməli, inflyasiya ilə əlaqədar olaraq əhalinin gəlirlərini indeksləşdirməlidir. Bu siyasəti aparmaqla dövlət, həmçinin, ölkənin bütün vəətndaşlarının minimum yaşayış səviyyəsini təmin edir və cəmiyyətdə sosial gərginliyin yaranmasının qarşısını alır.

5. Sağlam rəqabəti qoruyub saxlamalıdır. Bazar iqtisafiyyatında rəqabət əsas tənzimləyici alətlərdən biridir. Rəqabət iqtisadiyyatın bütün sferalarında tərəqqinin əsasıdır, o, istehsalçını ən yeni texnika və mütərəqqi texnologiyanı tətbiq etməyə, məhsulun keyfiyyətini yüksəltməyə sövq edir. Buna görə də dövlətin mühüm funksiyalarından biri rəqabətin müdafiəsidir. Rəqabət şərairində alıcılar sahib, bazar-onların agenti, müəssisə isə – onların xidmətçisidir. İnhisarçılıqda vəziyyət kəskin surətdə dəyişilir və alıcı sahiblikdən xidmətçiyə çevrilir.

Dünya təcrübəsi göstərir ki, dövlət yalnız müəyyən şərait zəmin olanda sahibkarlıq fəaliyyətinə və bütövlükdə iqtisadiyyata müdaxilə etməlidir. Şərait pozitiv və neqativ ola bilər.

Pozitiv şərait dedikdə sahibkarlıq fəaliyyətinə və bütövlükdə ölkənin iqtisadiyyatına müsbət təsir edən insan fəaliyyətinin müxtəlif sferalarındakı müxtəlif pozitiv təzahürlər və proseslər başa düşülür. Bu halda dövlətin rolu vaxtında həmin təzahürləri və prosesləri aşkara çıxarmaqdan və onların saxlanması üzrə müəyyən tədbirlər qəbul etməkdən ibarətdir.

Neqativ şərait – sahibkarlıq fəaliyyətinə və bütövlükdə ölkənin iqtisadiyyatına mənfi təsir edən insan fəaliyyətinin müxtəlif sferalarındakı hər cür neqativ təzahürlər və meyllərdir. Bu təzahürlər və meyllər həm mahiyyətinə görə və həm də iqtisadiyyata mənfi təsir qüvvəsinə görə çox müxtəlif olurlar. Bu zaman dövlətin rolu həmin təzahürləri və meylləri vaxtında aşkara çıxarmaqdan, onların başvermə səbəblərini öyrənməkdən ibarətdir. Dövlətin iqtisadiyyata müdaxiləsi üçün şərtlər aşağıdakılar ola bilər: milli təhlükəsizlik tələbi, cəmiyyətdə sosial gərginlik, iqtisadiyyatda neqativ təzahürlər (istehsalın tənəzzülü, inflyasiya, yüksək səviyyədə işsizlik, struktur uyğunsuzluğu, büdcə kəsiri, məhsulun keyfiyyətinin aşağı olması, investisiya çatışmazlığı və s.), ətraf mühitin korlanması.

İşsizlik bazar iqtisadiyyatının ayrılması ünsürüfdür. 6 %-ə qədər işsizlik normal, təbii səviyyə sayılır. Işsizliyin üç növü – friksion, struktur və dövri işsizlik olur. Friksion və struktur işsizlik təbii sayılır, çünki daha gəlirli iş axtarmaqla, mövsumi fasilələrlə, habelə bu və ya digər peşəyə tələbin azalması ilə əlaqədar işsizlikdir. Təbii səviyyəni (6%) aşandan sonra istehsalın tənəzzülə uğraması ilə əlaqədar dövri işsizlik baş verir. Buna gör də dövlət dövri işsizliyi tənzimləməlidir. Beləliklə, işsizlik üçün meyar təbii işsizlik səviyyəsinə düzəldilmiş onun səviyyəsidir.

İnflyasiya – istehlak qiymətlərinin artım sürətinin əhalinin gəlirinin artım sürətini üstələməsidir. İnflyasiya işsizliklə müqaisədə daha mürəkkəb təzahürdür. İnflyasiya dünyanın bütün ölkələri üçün səciyyəvidir, belə ki, malların və xidmətlərin həcmi daim sabit qalmır, dəyişilir. Qeyd etmək lazımdır ki, müəyyən səviyyəyə qədər inflyasiya təhlikəli deyil, amma onun yüksək səviyyəsi ölkənin iqtisadiyyatına böyük zərbə vurur. Məhz ona görə dövlət inflyasiyanı nəzarətdən çıxmağa qoymamalı və onu həmişə cilovlamalıdır.

Dövlətin antiinflyasiya tədbirləri təkcə inflyasiyanın səviyyəsindən asılı deyil, həm də onu doğuran səbəblərlə əlaqədardır. Bundan asılı olaraq inflyasiyanın iki tipi fərqlənir: tələb inflyasiya və təklif inflyasiyası. Bu inflyasiyaların hər birinin özünəməxsus xüsusiyyətləri vardır. Deməli, onların aradan qaldırılması tədbirləri də müxtəlif olmalıdır.

Büdcə kəsiri – dövlət məsariflərinin onun gəlirini üstələməsidir. Dövlər büdcənin balanslaşdırılmasına deyil, onun rəqabət qabiliyyətini üstələməsinə cəhd göstərməsidir. Bunun üçün meyar ümumi daxili məhsulda büdcə kəsirinin payı götürülməlidir. Dövlətin vəzifəsi bu meyarın əvvəlcədən müəyyən edilmiş kəmiyyəti üstələməsinə yol verməməkdən ibarətdir.

Dövlət özünün tənzimləyici funksiyasını yerinə yetirmək üçün müvafiq qanunvericilik aktları və qərarlar qəbul edərək və eləcə də müəyyən iqtisadi siyasət həyata keçirərək sahibkarlıq fəaliyyətinə və ölkə iqtisadiyyatına iqtisadi (dolayı) və inzibati (birbaşa) təsir metodlarından istifadə edir. Bazar iqtisadiyyatlı ölkələrin təcrübəsi göstərir ki, iqtisadiyyatın reformasiyası şəraitində və iqtisadi tənəzzül vəziyyətində dövlətin tənzimləyici rolu artır, iqtisadi sabitlik və dirçəliş mərhələsində isə azalır. Ancaq bütün hallarda dövlət sahibkarlıq fəaliyyətinə və ölkə iqtisaiyyatına elə müdaxilə etməlidir ki, bazar münasibətlərinin formalaşmasına maneçilik törətməsin və böhran təzahürlərinə yol verməsin.

İqtisadiyyatın tənzimlənməsi üçün dövlətin istifadəı etdiyi iqtisafdi vasitələr həddindən ziyadə çoxdur, ancaq onlardan əsasları vergi, gəlirin və resursların yenidən bölgüsü, qiymətqoyma, dövlət sahiabkarlıq fəaliyyəti, kredit-maliyyə mexanizmi və s. hesab edilir.

İqtisadi metoddan istifadə mümkün olmayanda və ya lazımi səmərə verməyəndə dövlət inzibati metoddan istifadə etməlidir. Dünya təcrübəsi göstərir ki, inzibati metodun aşağıdakı sahələrdə tətbiqi daha səmərəlidir:

- təbii inhisarçılıq;
- ətraf mühitin mühafizəsi və resurslardan istifadə;
- sertifikatlaşdırma, standartlaşdırma, metrologiya;
- sosial siyasət, hər şeydən öncə əhalinin minimum yaşayış səviyyəsinin müəyyənləşdirilməsi və təmin edilməsi.

Azərbaycan respublikasında sahibkarlıq fəaliyyətinin bəzi növləri yalnız xüsusi razılıq (lisenziya)əsasında həyata keçirilir.

Sahibkarlıq fəaliyyəti növlərinin xüsusiyyətlərindən asılı olaraq razılığın (lisenziyanın)verilmə müddəti müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilir.Təqdim olunmuş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə ,onlar aradan qaldırildiqdan sonra onlara 5 gün müddətində baxılır və müvafiq qərar qəbul edilir.

Xüsusi razılıq (lisenziysa)verilməsindən aşağıdakı hallarda imtina edilir:

1.Lisenziya verilməsi qaydalarında nəzərdə tutulmuş sənədlər təqdim edilmədikdə;

2.Ərizəçinin təqdim eidiyi sənədlərdə qeyri dürüst və ya təhrif olunmuş məlumatlar olduqda ;

3.Müvafiq fəaliyyət növünün həyata keçirilməsi üçün ərizəçinin zəruri şəraiti olmadıqda;

4.Qanunvericilikdə nəzərdə tutulan digər hallarda.

Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinin xarici dövlətlərin ərazisindəki sahibkarlıq fəaliyyəti sahəsində hüquq və mənafelərinin müdafiəsinə Azərbaycan dövləti təminat verir.

Sahibkarlıq fəaliyyətinin yoxlanılmasını həyata keçirən orqanlar,onların hüquq və səlahiyyətləri qanunvericilik aktları ilə müəyyənləşdirilir.

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan hallar istisna edilməklə sahibkarın əmlakı toxunulmazdır.

Sahibkarlıq fəaliyyətinə dövlət nəzarəti həmin fəaliyyətin səmərəli həyata keçirilməsinə maneələr yaratmamalıdır.Nəzarəti həyata keçirmək hüququna yalnız qanun əsasında bu hüquqlar verilmiş orqanlar malikdir.Vergi,antiinhisar,sanitariya,ekologiya və s.dövlət nəzarət orqanlarının yoxlamaları yalnız onların səlahiyyətlərinə müvafiq surətdə həyata keçirilir.

Hüquqi şəxs taradılmaqla həyata keçirilən sahibkarlıq fəaliyyətindən əldə olunan mənfəətdən və sahibkarın şəxsi gəlirdən vergilərin tutulması Azərbaycan Respublikasının qüvvədə olan vergi qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Sahibkardan əsassız olaraq məcburi surətdə vergi və digər ödəmələr tutularsa və ya sahibkara vergi qanunvericiliyini pozduğuna görə cərimə sanksiyaları düzgün tətbiq edilməzsə,sahibkarın buna yol vermiş orqanlara iddiası kredit faizi əlavə olunmaqla qaytarılır.

- Sahibkar Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə əməl etmədiyi öz öhdəliklərinin icra etmədiyi və ya lazımi qaydada icra etmədiyi hallarda qanunvericiliyiə uyğun olaraq mülki-hüquqi,inzibati və cinayət məsuliyyətin daşıyır.

Sahibkarlıq fəaliyyətini və bütövlükdə iqtisadiyyatı inkişaf etdirmək üçün dövlət müvafiq iqtisadi siyasət həyata keçirməlidir. İqtisadi siyasət fiksal, elmi-texniki, investisiy Dünyanın əksəriyyət ölkələrində əsasən strateji təyinatlı sahələr (neft sənayesi, kömür sənayesi, elektroenergetika, dəniz, dəmir yolu və hava yolu nəqliyyatı, təyyarə və kosmonavtika və i.a.) dövlət mülkiyyətində saxlanılır və inkişaf etdirilir. Söhbət o sahələrdən gedir ki, haradakı investisiya resurslarının, yəni istehsal üçün zəruri maşın və avadanlıqların

məcmusunun müstəsna əhəmiyyəti var, dəyəri də olduqca böyükdür. Lakin investisiya resurlarının belə həcmi həmin sahəni rəqabətə və vaxtaşırı böhrana daha cəlbedici edir.

Dövlətin birbaşa müdaxiləsi – bazar sisteminin bütün elementləri arasında münasibətləri sahmanlamağa və inkişaf etdirməyə xidmət edən qanunvericilik aktlarının qəbul edilməsidir.

Dövlətin sahibkarlıq fəaliyyətinə və bütövlükdə ölkənin iqtisadiyyatına dolayısı müdaxilə etməsi qarşıda qoyulan məqsəddən asılı olaraq aşağıdakı istiqamətlərdə ola bilər:

- kapital qoyuluşunun stimullaşdırılması və qənaət edilib yığılmış pul ilə investisiya arasında tarazlığın bərpası;
- əhalinin tam məşğulluğunun təmin edilməsi;
- malların, kapitalın və işçi qüvvəsinin ixracı və idxalının stimullaşdırılması;
- bəzi spesifik malların qiymətlərini sabitləşdirmək məqsədilə qiymətin ümumi səviyyəsinə təsir edilməsi;
- sabit iqtisadi artımın qorunub saxlanılması;
- gəlirin yenidən bölgüsü və bəzi digər məqsədlər.

Istənilən sahibkarlıq fəaliyyətini inkişaf etdirmək üçün müvafiq hüquqi baza yaradılmalıdır. Daha doğrusu, sahibkarlıq fəaliyyətini tənzimləyən, sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradan qanunlar olmalıdır. Həmin qanunlarda sahibkarların mülkiyyət hüquqlarının qorunması, hər cür bürokratik maneələrdən sahibkarların müdafiə olunması, müqavilə öhdəliklərinə riayət edilməsi, əlverişli sahibkarlıq mühitinin yaradılması, istehsal sahibkarlığının üstün inkişafına yönəldilən vergi qanunvericiliyinin təkmilləşdirilməsi və məsələlər öz əksini tapmalıdır. Burada həmçinin sahibkarlıq fəaliyyətinin hüquqi təminatı məsələləri üzrə qanunvericilik təşəbbüsünün hazırlanması mühüm rol oynayır.

Bəllidir ki, kapitalizmdə inhisarçılıq rəqabət nəticəsində, yəni güclülərin zəiflər üzərində qələbəsi ilə meydana gəldi. Kapitalist inhisarçılığının əsas xüsusiyyəti ondan ibarətdir ki, o, əvvəlki inhisarlardan əmtəə-pul münasibətləri ilə fərqlənir və iqtisadi üsullarla təmin edilir. Sosializmdə isə inhisarçılıq "meydana gəlmədi", o, əvvəlcədən həmin ictimai quruluşun modelində nəzərdə tutulmuşdur.

İnhisarçılıq azad rəqabət mühitinin formalaşdığı şəraitdə, yaxud dövlətin iqtisadiyyata birbaşa müdaxiləsi nəticəsində bir-birilə sıx əlaqədar sahələrin, tərəfdaşların öz iqtisadi şərtlərini diqtə etmək imkanıdır. Sənayedə inhisarçılıq məhsul istehsalında dair dövlət sifarişlərində, xammala, yanacağa, texnikaya və hazır məhsula qiymətlərin nazirlik, şirkət və yuxarı təşkilatlar tərəfindən müəyyənləşdirilməsində təzahür edir. Bu cür inhisarçılıq meylləri sənaye müəssisələrinin ahəngdar işləməsini təmin etmir, yüksək rəqabət qabiliyyətli məhsul istehsalına stimul yaratmır, habelə sahədaxili və sahələrarası iqtisadi əlaqələrin pozulmasına səbəb olur.

Bazar iqtisadiyyatının əsas əlaməti olan azad rəqabət mühitinin yaranması təkcə mülkiyyət formalarının müxtəlifliyi ilə deyil və eləcə də təsərrüfat subyektlərinin müxtəlifliyi, müstəqilliyi və sıx qarşılıqlı əlaqələrinin xarakteri ilə səciyyələnir.

İnhisarçılıq müxtəlif zəminlərə əsaslana bilər: sənaye istehsalının əhəmiyyətli hissəsini ələ keçirmək, bazarların bölünməsi və qiymətin səviyyəsi haqqında gizli və aşkar razılaşmaq, süni mal qıtlığı yaratmaq və s. Antiinhisar qanunçuluğu XIX əsrin sonunda amerika sənayesinin geniş inhisarlaşması və kartelləşməsi şəraitində qəbul edilmişdir: Şerman qanunu, 1890-cı il, Kleyton qanunu, 1914-cü il, Robinson-Patman qanunu, 1936-cı il. Yaponiyada xüsusi inhisarı qadağan edən qanun 1947-ci ildə qəbul edilmişdir. İngiltərədə antiinhisar qanunçuluğu 1948-1980-cı illərdə qəbul edilmiş aktlarda öz əksini tapmışdır.

Azərbaycan Respublikasında təbii inhisarçıların siyahısı Azərbaycan Respublikası Milli Məclisinin 31 mart 1995-ci il tarixli, 1012 saylı qərarı ilə təsdiq edilmişdir.

1. Yanacaq və energetika sahəsində:

Magistral qaz kəməri daxil olmaqla, qaz təchizatı sisteminə xidmət edən müəssisələr və təşkilatlar;

Neft kəmərləri və terminallarına xidmət edən müəssisələr və təşkilatlar;

Vahid enerji sisteminə daxil olan elektrik enerjisi istehsalı, onun ötürülməsi, paylaşdırılması və təchizatı ilə məşğul olan müəssisələr və təşkilatlar.

2.Nəqliyyat sahəsində:

Dəmiryolu nəqliyyatı;

Magistral və yerli dəmiryolu xəttələrinin, yol qurğu və tikintilərinin istismarını həyata keçirən müəssisələr və təşkilatlar;

Stansiyalar, sərnişin vağzalları, hərəkəti idarəetmə və hərəkətin təhlükəsizliyini təmin edən müəssisələr və təşkilatlar;

Dəmiryolu nəqliyyatı vasitələrinin texnoloji sazlanması və buraxılışı üzrə məntəqələr.

Hava yolları nəqliyyatında:

Aeroportlar, uçuşların idarə olunmasını və təhlükəsizliyini təmin edən müəssisələr və təşkilatlar.

Su nəqliyyatında:

Limanlar və liman qurğularının istismarı üzrə qurumlar;

Hərəkətin təhlükəsizliyini təmin edən müəssisələr və təşkilatlar.

Avtomobil nəqliyyatı:

Magistral avtomobil yollarının, yol qurğularının saxlanılmasını və istismarını həyata keçirən müəssisələr və təşkilatlar.

3. Rabitə sahəsində:

Rabitə xidməti müəssisələri və təşkilatları.

Radio və televiziya verlişləri yayımı üzrə müəssisələr və təşkilatlar.

4. Kommunal xidmətləri sahəsində:

Kommunal xidmət (su, istilik təchizatı, kanalizasiya) müəssisələri.

Bazar iqtisadiyyatının prinsiplərinə uyğun olan “Antiinhisar fəaliyyəti haqqında” qanun xalq təsərrüfatının bütün sahələrinin inhisarsızlaşdırılması proqramını işləyib hazırlamağı və ardıcıl həyata keçirməyi tələb edir. Fikrimizcə, sənayenin inhisarsızlaşdırılması proqramında aşağıdakı tədbirlər nəzərdə tutulmalıdır:

- idarəetmə strukturlarını bazar münasibətlərinə uyğunlaşdırmaq, yəni assosiasiyalar, səhmdar cəmiyyətləri, şirkətlər, xoldinq və s. üfüqi birləşmələr yaratmaq;
- iri sənaye müəssisələrinin, təsərrüfat subyekrlərinin təşəbbüskarcasına bölüşdürlməsi mexanizmini formalaşdırmaq;
- idxal-ixrac siyasətinin qanunvericilik bazasını təkmilləşdirmək;
- sənaye məhsullarına tələbat və onun ödənilməsi, bazar qiymətləri, məhsulun rentabelliyi və s. göstəricilər haqqında informasiya bazası yaratmaq.

Azərbaycan Respublikasında antiinhisar siyasəti həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı – Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsidir. Bu komitə sahibkarlığın dövlət tərəfindən tənzimlənməsi sahəsində hüquqi və normativ sənədlərin hazırlanmasına və onların həyata keçirilməsinə bilavasitə cavabdeh dövlət strukturudur.

“Sahibkarlıq fəaliyyəti haqqında” qanun Bakı şəhəri, 15 dekabr 1992-ci il 12 noyabr 2020-ci il tarixli **1179** nömrəli sahibkarlığın prinsiplərini, sahibkarlıq subyektlərinin hüquqlarını və vəzifələrini, onun dövlət tərəfindən müdafiə və təqdir olunmasının forma və üsullarını, sahibkarların dövlət orqanları ilə qarşılıqlı münasibətlərini müəyyənləşdirir. Bu qanun mülkiyyətin bütün formalarının bərabərliyi prinsiplərinin həyata keçirilməsi, müstəqil olaraq fəaliyyət sahələri seçilməsi və iqtisadi qərarlar qəbul edilməsi əsasında iqtisadi təşəbbüsü və işgüzarlığın geniş təzahür etməsi üçün şərait yaradılmasına yönəldilmişdir.

2.Büdcə-vergi siyasəti və sahibkarlıq

Büdcənin gəlirlər hissəsinin formalaşması istiqamətləri vergilər, qeyri vergilərdən daxilolmalar, dövlət vəsaiti hesabına verilmiş kreditə görə alınan faizlər və s. hesab edilir. Dövlətin xarici ölkələrdən və ya beynəlxalq qurumlardan aldıqları kreditlər də büdcənin gəlirləri sırasına aid edilir. Büdcənin gəlirlərinin formalaşmasında vergilər əsas gəlir mənbəyidir. Bu proporsionallıq həmçinin bütün ölkələrdə qorunur.

1997-ci ildə Azərbaycan Respublikasında vergi siyasətinin təkmilləşdirilməsi və vergilərin yığılması sahəsində həyata keçirilən tədbirlər dövlət büdcəsinin gəlirlərini artırmağa imkam vermişdir. Bu tədbirlər əsasən bunlardır: müəssisə və təşkilatların mənfəət vergisi dərəcəsinin 35 faizdən 32 faizə endirilməsi, bir sıra rüsumsuz və iqtisadiyyatın inkişafına mane olan güzəştlərin ləğv edilməsi, alkoqollu içkilər və üstün məmulatına aksiz vergisinin tətbiq qaydasının təkmilləşdirilməsi, cari vergilərin vaxtında və tam ödənilməsini stimullaşdırmaq məqsədilə əvvəllər yaranmışdır.

Sahibkarlıq fəaliyyətində vergiqoyma. Sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsində vergi siyasəti mühüm rol oynayır. Vergi dövlət büdcəsini formalaşdırmaq, dövlət idarəetmə aparatlarını saxlamaq və əhaliyə müxtəlif xidmətlər göstərmək üçün nəzərdə tutulan maliyyə resurslarının yaradılmasının əsas mənbəyidir.

Vergi dövlət tərəfindən,müəsissələrdən,təsərüfatlardan,təşkilatlardan və vətəndaşlardan tutulan məcburi ödəmələrdir.Vergilər dövlətin iqtisadi rolu ilə üzvi surətdə bağlıdır.Onun iqtisadi fəalığını artırmağın başlıca vəzifələrindən biridir.Vergilər büdcəni formalaşdırmaqda dövlətin əlində qüdrətli silahdır.Onun başlıca gəlir mənbəyidir.Vergilər bir tərəfdən,dövlət büdcəsini maliyyə ehtiyatları ilə təmin edir.

Azərbaycan Respublikasının müstəqilliyi və bazar iqtisadiyyatna keçidə başladığı şəraitdə yeni vergi siyasətinin və vergi sisteminin yaradılması obyektiv zərurətdir.

Vergi siyasəti dövlətin maliyyə siyasətinin tərkib hissəsidir.Vergiyə cəlb olunma sahəsində dövlətin həyata keçirdiyi tədbirlər vergi sistemini təşkil edir.

Dövlətin vergi sistemi hər şeydən əvvəl cəmiyyət üçün zəruri olan istehsal sahələrini inkişaf etdirmək,dövlətin müəyyən təxirəsalınmaz vəzifələrini yerinə yetirmək üçün iqtisadi şərait yaratmalıdır.

Vergi hər şeydən əvvəl ədalətli və işlək olmalıdır.Çoxnövlü mülkiyyət formalarından aslı olmadan vergi ödəyənlərə eyni tələblər qoyulmalıdır.Vergilərin səviyyəsi hədsiz dərəcədə yüksək olmamalıdır.Bu,istehsalın inkişafına stimul yaratmağa sövq edir.

Hər ölkənin inkişaf səviyyəsindən,mövcud vəziyyətindən və başqa amillərindən asılı olaraq verginin həcmi müxtəlif olur.

Yaranan yeni özəl müəssisələr vergi ödənişlərindən yayınmamalıdır.Vergi verməkdən boyun qaçıranlar dövlət büdcəsinin formalaşmasına mənfi təsir göstərirlər.

Hazırda respublikamızda bir çox vergi növü vardır.Məsələn,mənfəətdən alınan vergi,gəlir vergisi,gömrük vergisi,reklam ilə əlaqədar olan vergi və s.

Vergilər üç əsas vəzifəni yerinə yetirməlidir:1.Dövlət xərclərinin maliyyələşdirməsini təmin etməlidir.2.Sosial tarazlığı saxlamalıdır.3.Dövlətin iqtisadiyyatın tənzimlənməsinə nail olunmalıdır.Buna tənzimedici funksiya deyilir.

Vergilərin əsas olaraq iki növü var:1.birbaşa vergiləri. 2.dolayı vergilər.

Birbaşa vergilər vergi ödəyicilərinin dövlətə gəlirdən,əmlakdan və sərvətdən istifadəyə görə ödədikləri vergilərdir.Belə vergilərin obyekti kimi vergi ödəyicilərinin gəlirləri (əmək haqqı,mənffət,faiz və s.)vəəmlakın dəyəri (torpaq,bağ,mənzil,maşın,binalar və s.)çıxış edir.

Birbaşa vergilərə aşağdakılar daxildir:Müəssisələrdən mənfəət vergisi;əhalidən gəlir vergisi;torpaq vergisi;əmlak vergisi;mədən vergisi;birdəfəlik rüsum;təbii sərvətlərdən istifadəyə görə haqq və s.

Dolayı vergilər əmtəələrin,tariflərin və xidmətlərin qiymətlərinə əlavə olaraq qoyulmuş vergilərdir.Dolayı vergilərə bunlar daxildir:

Əlavə dəyər vergisi;aksizlər;ixracat vergisi;gömrük rüsumu;istehlak vergisi;yol fonduna daxil olan vəsaitlər və s.

Dolayı verginin ödəyicisi istehlakçılardır.Lakin vətəndaşların bir qismi dolayı vergiyə cəlb edilmirlər.Başqa sözlə,dolayı vergi insan orqanizmi üçün zərərli olan məhsullara qoyulur.

Birbaşa vergilər üzrə:

Mənfəətdən vergi- müəssisənin əldə etdiyi mənfəətdən dövət büdcəsinə normativ əsasında ayrılan vergilərdir. Mənfəət vergisi müəssisənin dövlət büdcəsinə məcburi ödəniş həcmini müəyyənləşdirir. Bu halda vergi tutma obyekti müəssisənin ümumi gəliri qəbul edilir. Mənfəət vergisinin hesablanması müxtəlif vergi güzəştləri ilə əlaqədardır. Onların siyahısı böyükdür. Belə ki, xarici ölkələrin təcrübəsində bilavasitə istehsal xərcləri istisna olmaqla, müəssisənin ümumi gəlirindən müxtəlif fondlara ayırmaları, elmi tədqiqat işlərinə çəkilən məsarifləri, dividentləri, kredit üzrə borc faizlərini çıxmağa icazə verilir. Ən iri güzəşt sürətli amortizasiya, yəni əsas kapitala çəkilən xərclərin tezliklə ödənilməsi hesab edilir. İstehsal əsas fondlarının alınmış dəyərini ödəyən illik amortizasiya ayırmaları xərcdir, ancaq qüvvədə olan qanunçuluğa əsasən vergiyə cəlb edilmir.

Gəlir vergisi- fiziki şəxslərin və bütün vergi ödəyicilərinin gəlirlərindən tutulan vergidir.Gəlir vergisinin aylıq və illik vergi dərəcələri qəbul olunmuş qanunvericiliklə müəyyən olunur. Şəxsi gəlir vergisi dövlət büdcəsi strukturunun formalaşmasında müstəsna əhəmiyyətə malikdir. O, kütləvi xarakter daşıyır və vətəndaşların, əmək haqqı, müxtəlif yaradıcılıq növlərindən və kommersiya fəaliyyətindən birdəfəli gəlir, alınan dividentlərin və s. daxil olmaqla, bütün gəlirlərindən tutulur.

Torpaq vergisi- torpaqdan istifadə ilə bağlı vergidir.

Əmlak vergisi- bütün əmlak növlərindən istifadəyə görə ödənilən vergilərdir və s.

Dolayı vergilər üzrə:

Əlavə dəyər vergisi- hüquqi və fiziki şəxslərin fəaliyyət prosesində yaranan dəyər artımının qanunvericiliklə müəyyən olunan hissəsinin dövlət büdcəsinə ayrılan hissəsidir.(hazırda bu vergi 18%təşkil edir.)

Aksizlər- fransızca–aqrise, latınca aqriqere sözündən götürülmüş “kəsmək” deməkdir. Aksiz vergisi ölkə ərazisində kütləvi istehlak əmtəələrinə(qənd,çay,tütün,duz,kibrit,spirtli içkilər və s.)

Proporsional vergi sistemi şəraitində gəlirlərin artıb azalmasından aslı olmayaraq eyni vergi dərəcəsi müəyyən olunur.

Vergiqoymanın əsas prinsipləri aşağıdakılardır:

1.Vergilərin məcburi ödənilməsi prinsipi,yəni bütün vergilərin ödənilməsi məcburi xarakter daşıyır.

2.Nemətlərin əldə olunması ilə əlaqəlilik prinsipi,yəni birbaşa vergilər əsasən nemət və sərvətlərdən istifadəyə görə müəyyən olunur.

3.Sosial ədalət prinsipi yəni vergi növlərinin və vergi dərəcələrinin müəyyən olunmasından sosial ədalət prinsipi nəzərə alınmalıdır.

4.Dövlətlə təsərrüfat subyektlərinin mənafelərinin əlaqələndirilməsi prinsipi.

5.Vergiqoymada səmərəlilik prinsipi,yəni vergilərin faydalılığının, möhkəmliliyini,elastikliyinin,davamlılığının qorunub saxlanmasıdır.

6.Vergiqoymada yığım prinsipi yəni vergi ödəyicilərinin büdcəyə öhdəlikləri pul məbləği ilə onların öz gəlirləri arasında fərqin azalmasına xüsusi diqqət yetirilməlidir.

Gömrük rüsumu-ölkənin sərhədlərini keçən idxal,ixrac və tranzit əmtəələrinə görə ödənilən vergidir.

Nəqliyyat vergisi-bütün növ nəqliyyat vasitələrində istifadəyə görə tutulan vergidir.

Vergilər sosial iqtisadi təyinatından aslı olaraq iki başlıca funksiyanı yerinə yetirir:

1.Fiskal funksiya – onun köməyilə dövlətin pul gəlirləri vergilər hesabına toplanır.

2.İqtisadi funksiya -onun vasitəsilə vergilər stimullaşdırıcı,məhdudlaşdirici və nəzarətedici formalarda iqtisadi fəaliyyətə təsir edir.

Vergilər sistem halında olub fəaliyyət göstərir.Vergilər sistemini 4 cür olur:

1.Proqresiv(mütərəqqi)vergi sistemi.

2.Reqressiv(qeyri mütərəqqi)vergi sistemi.

3.Qarışıq vergi sistemi.

4.Proporsional vergi sistemi.

Proqressiv vergi sistemi şəraitində vergi ödəyicilərinin gəlirləri artdıqca gəlirə tətbiq edilən verginin dərəcəsi də artır.

Reqressiv vergi sisteminə görə vergi ödəyicilərinin gəlirləri artdıqca tətbiq edilən vergi dərəcəsi aşağı salınır.

Qarışıq vergi sisteminə görə gəlirlərin artıb azalmasından aslı olmayaraq vergi faizi ya dəyişmir,ya da müəyyən həddə qədər artır və sonra azalır.

Vergi dövlətin sahibkarlıq fəaliyyətinə və bütövlükdə ölkə iqtisadiyyatına göstərdiyi təsir vasitələrindən ən mühümüdür. Vasitəsiz vergilər öz növbəsində real və şəxsi vergilərə bölünür. Real vergilərə gəlirin, yaxud əmlak obyektlərinin müxtəlif növlərinə qoyulan vergilər; şəxsi vergilərə isə fiziki şəxslərdən gəlir vergisi, hüquqi şəxslərin mənfəətindən vergi, əmlak vergisi, vərəsəlik və bağışlama vergisi daxildir.

Gömrük tarifi daxili bazarın xarici bazarla səmərəli əlaqəsini təmin etməklə xarici ticarətin dövlət tənzimlənməsinin mühüm vasitəsidir. Gömrük tarifinin əsas məqsədləri aşağıdakılardır:

- idxalın əmtəə strukturunu səmərələşdirmək;
- respublika ərazisində malların gətirilməsi və çıxarılmasının, valyuta gəlirlərinin və xərclərinin əlverişli nisbətini təmin etmək;
- valyuta sərvətlərinin respublikanın gömrük ərazisinə gətirilməsi və bu ərazidən çıxarılması üzərində səmərəli nəzarət etmək;
- ölkədə malların istehsal və istehlak strukturunda mütərəqqi dəyişikliklər üçün şərait yaratmaq;

- milli iqtisadiyyatı xarici rəqabətin mənfi təsirindən qorumaq;
- respublika iqtisadiyyatının dünya təsərrüfatı ilə səmərəli inteqrasiyasına şərait yaratmaq.

Dövlət xərclərinin azaldılması müəyyən hallarda büdcə kəsirinin azalmasına, deməli, inflyasiya prosesinin yavaşımasına gətirib çıxarır.

Bazar iqtisadiyyatında müəyyən özünü tənzimləmə mexanizmləri mövcuddur, hansı ki, iqtisadiyyatda neqativ proses müşahidə olunan kimi dərhal hərəkətə başlayırlar. İqtisadi ədəbiyyatda onlar qurulmuş stabilizatorlar adlanır. Onlar imkan verir ki, vergi daxilolmalarının dəyişilməsini, sosial müavinətin ödənilməsini avtomatik həyata keçirsinlər. Mütərəqqi vergitutma sistemi bu cür stabilizator ola bilər, hansı ki, gəlirdən asılı olaraq vergini müəyyən edir. Gəlirin artması ilə əvvəlcədən dövlət tərəfindən təsdiq edilmiş vergi dərəcəsi mütərəqqi artırılır.

3.İnvestisiya siyasəti və sahibkarlıq

Sahibkarlıq fəaliyyətinə və bütövlükdə ölkə iqtisadiyyatına dövlətin mühüm təsir vasitələrindən biri investisiya siyasətidir. İnvestisiya siyasətinin köməyi ilə dövlət istehsalın tempinə, elmi-texniki tərəqqinin sürətlənməsinə, iqtisadiyyatda struktur dəyişikliklərinə və sosial problemlərin həllinə bilavasitə təsir edir.

İnvestisiya – gəlir və sosial səmərə əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir. Belə vəsait və sərvətlər bunlardır:

- pul vəsaiti, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər və digər qiymətli kağızlar; daşınar və daşınmaz əmlak (binalar, qurğular, avadanlıq və başqa maddi sərvətlər);
- müvafiq qaydada rəsmiləşdirilmiş elmi-təcrübi və digər intellektual sərvətlər;
- bu və ya digər istehsal növünün təşkili üçün zəruri olan, ancaq patentləşdirilməmiş, texniki sənədləşdirmə, vərdiş və istehsalat təcrübəsi kimi tərtib edilmiş texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu (“nou-hau”);
- torpaqdan, sudan və digər ehtiyatlardan, binalardan, qurğulardan, avadanlıqlardan istifadə hüquqları, habelə müəlliflik hüququndan irəli gələn və başqa əmlak hüquqları;
- başqa sərvətlər.

İnvestisiya layihələrinin qiymətləndirilməsinin ən sadə və geniş yayılmış metodlarından biri investisiyanın ödəmə müddətinin müəyyən edilməsi metodudur. Ödəmə müddəti alınacaq gəlir hesabına investisiyanın ödəniləcəyi ilin sayını hesablamaqla müəyyən edilir:

$$\text{Ödəmə müddəti} = \frac{\text{Investisiya}}{\text{Illik amortizasiya + illik xalis mənfəət}}$$

Ödəmə müddətinin hesablanması metodu aparılan hesablamalar baxımından çox sadədir və müxtəlif ödəmə müddətli investisiya layihələrini sıraya düzmək üçün dəyərlidir. Lakin bu metodun bir sıra qüsurları, çatışmamazlıqları vardır ki, onlara aşağıdakıları aid etmək olar.

4.Sahibkarlığın tənzimlənməsinin iqtisadi-psixoloji məsələləri

1930-cu illərin “boyuk depressiyası”, 1973-cu ilin qlobal enerji bohranı, 2008-ciilin qlobal maliyyə bohranı və insan azadlıqlarının həddən artıq məhdudlaşdığı olkələrin iqtisadi geriliyi həm ultraliberalizm, həm institusionalizm, həm də etatizm (*insanın huquq və*

azadlıqlarının məhdudlaşdırılması) ideyalarının iqtisadi sistemin tənzimlənməsi ucun qusursuz olmadığını gostərir.

"Hədsiz istehlak bohranı" adlanan muasir tənəzzul azad sahibkarların sosial məsuliyyətinin nə dərəcədə əhəmiyyətli olduğunu gostərir. İstənilən hakimiyyət məsuliyyəti şərtləndirir. Sahibkarlar cəmiyyətdə kimin qarşısında və nəyə gorə məsuliyyət daşımalıdır? Sahibkarın ictimai həyata və mənəvi dəyərlərə boyuk təsiri nə ilə əsaslandırılır? Bu suallar sahibkarlığın sosial funksiyasının mahiyyəti ilə bilavasitə bağlı olaraq, yalnız iqtisadi sahəni əhatə etmir. Muəssisə ictimai institut olaraq cəmiyyətin, iqtisadiyyatın və insanlararası munasibətlərin əsas elementidir. Buna gorə də muəssisənin fəaliyyət fəlsəfəsi yalnız şəxsi və qrup məqsədləri deyil, ictimai maraqları da ozundə ehtiva etməlidir. Muəssisə tərəfdaşların, əməkdaşların və alıcıların nəzərində cəmiyyətdə muəyyən social statusa nail olmağın və ictimai movqelərin ifadə vasitələrindən biri olmalıdır. Belə muəssisə iş yerlərinin və budcəyə vergi odəmələrinin mənbəyi kimi cıxış edərək cəmiyyətdə muəyyən nufuza malik olmalı, istehsal və istehlak mədəniyyətinin formalaşmasında yaxından iştirak etməli, milli-mədəni və ekoloji dəyərlərə onəm verərək mutərəqqi cəmiyyətin formalaşmasında iştirak etməlidir.

Sahibkarlığın tənzimlənməsinin əsas vəzifələrindən biri sahibkarın cəmiyyətə və təbiətə təsirinin və bu təsirə gorə məsuliyyətin idarə edilməsindən ibarətdir. Hər bir muəssisə təbiət və cəmiyyətlə daimi qarşılıqlı təsirdə olur. Dovlətin iqtisadi siyasətində azad sahibkarlığın dəstəklənməsı yalnız iqtisadi məqsədlərlə deyil, social və ekoloji amillərlə də əsaslandırılmalıdır. Azad sahibkarlıq cəmiyyətə və ətraf muhitə fayda verməlidir. Bu faydanın qiymətləndirilməsi ucun kəmiyyət və keyfiyyətcə qiymətləndirilə bilən meyarlar muəyyən edilməlidir.

Fərdiyyətciliyin ustunluk qazanmasına gətirən və insanın irsən əldə etdiyi *"bioloji instinktlər"in* rasional secimə təsirini *"mədəni instinktlər"in* və *intellektin ("duşunulmuş secim")* koməyi ilə ictimai səmərəliliyə istiqamətləndirmək imkanları movcuddur. Elə bir sosial-mənəvi muhit yaratmaq lazımdır ki, sahibkarlar əsas psixoloji motivlərini dəbdəbəli həyat tərzinin və əldə etdiyi maddi nemətlərin numayişi ilə bərabər, cəmiyyətə verdiyi faydanın gostərilməsi ilə də odəməyə istiqamətlənsinlər (*numunə ucun, budcəyə odədiyi vergilərin miqdarı, xarici bazarlarda rəqabətli olan məhsulların istehsalı, acdığı iş yerlərinin sayı, elm və təhsilin inkişafına yonəltdiyi vəsaitlərin məbləği və s.*). Sahibkarın cəmiyyətdə nufuzu onun əmlakının miqdarı və keyfiyyəti ilə deyil, cəmiyyətə verdiyi fayda ilə muəyyən edilsə, daha yaxşı olar. İnsanın davranışına və rasional seciminə təsir gostərən meyarlar arasında maddi dəyərlərlə umumbəşəri və milli mənəvi dəyərlər arasında tarazlığa nail olmaq lazımdır. Elmin, təhsilin və mədəniyyətin mutənasib və əlaqəli inkişafının bu məsələlərin həllində əhəmiyyəti cox boyukdur.

Hal-hazırda Azərbaycanın vergi sistemində tətbiq olunan mutərəqqi informasiya texnologiyaları vergi tənzimlənməsinin nisbətən murəkkəb və daha səmərəli mexanizmlərindən istifadə etməyə imkan verir:

- yenilikci sahibkarların muəyyən edilməsi və onlar ucun stimullaşdırıcı xususi vergi rejiminin tətbiqi;
- təkmilləşdirici xarakter daşıyan texniki-texnoloji və təşkilati yeniliklər hesabına əldə olunan əlavə mənfəətin aşağı vergi dərəcələri ilə vergiyə cəlb olunması;
- elm və təhsilin inkişafına yonəldilən vəsaitlərin gəlirdən cıxılan xərclərə aid edilməsi;
- vergi ucotunun təkmilləşdirilməsi və vergidən yayınma hallarına gorə sanksiyaların əsaslı şəkildə gucləndirilməsi.

Sahibkar təşkilatın həm iqtisadi, həm də ictimai səmərəliliyinə gorə məsuliyyət daşımalıdır.

İctimai baxımdan səmərəli fəaliyyət nə deməkdir?

İctimai səmərəliliyi necə qiymətləndirmək və yuksəltmək olar?

Sahibkar ictimai səmərəlilik gostəricilərinə gorə kimin qarşısında hesabat verməlidir? İctimai səmərəliliyə nail olan sahibkar nə qazanır?

Y.Şumpeterin və digər alimlərin qeyd etdiyi motivlərlə fəaliyyət gostərən sahibkar ictimai maraqlara xidmət etməklə hansı tələbatını odəyəcək?

Bu suallar sahibkarlığın tənzimlənməsi uzrə yeni tədqiqat istiqamətlərinin secilməsində yararlı ola bilər.